# Ləyaqət və nüfuz



**Yaşadığı şəhərdə və çalışdığı kollektivdə xüsusi nüfuza malikdir. Səmimiyyəti, mehribanlığı, qayğıkeşliyi ilə diqqət çəkir. İşinə ürəkdən bağlıdır. Vəzifəsinə məsuliyyətlə yanaşır. Bir qayda olaraq, həmişə ona göstərilən etimadı ləyaqətlə doğruldur. Bəlkə də elə bu səbəbdəndir ki, neçə-neçə ictimai vəzifəni də icra edir. Söhbət təbii ki, Gəncə şəhər 4 saylı Uşaq Musiqi Məktəbinin direktoru İntizar xanım Qafarovadan gedir.**

**Qafarova İntizar İslam qızı 1959-cu il yanvarın 4-də Daşkəsən rayonunda ziyalı ailəsində anadan olub. Gəncə şəhər 5 saylı orta məktəbi bitirib.**

**Gəncə Musiqi Texnikumu və Gəncə Dövlət Pedaqoji Universitetinin məzunudur. 1996-cı ildən 4 saylı Gəncə Şəhər Uşaq Musiqi Məktəbinin direktorudur. İntizar xanım eyni zamanda həm də YAP-ın ərazi təşkilatının və Gəncə Şəhər Mədəniyyət və Turizm İdarəsi Həmkarlar Təşkilatının sədridir.**

Yeni Azərbaycan Partiyasının II qurultayında, YAP-ın yaradılmasının 10-cu ildönümünə həsr edilmiş təntənəli yığıncaqda, habelə Azərbaycan qadınlarının II qurultayında iştirak edib.

Fəal işinə, ona verilən tapşırıqları ləyaqətlə yerinə yetirdiyinə görə dəfələrlə mükafatlandırılıb. Fəxri fərman, tərifnamə və diplomlara layiq görülüb.

Ailəlidir. Aygün, Gülnar və Aynur adında üç qızı var. Hər üçü tələbədir. Gəncə Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti və Bakı Musiqi Akademiyasında təhsil alırlar. Bütövlükdə Gəncədə bu ailəni ziyalılar ailəsi kimi tanıyırlar. İntizar xanımın həyat yoldaşı Rəhim Qafarov Gəncə Şəhər Ekologiya İdarəsinin rəis müavinidir.

Məktəb 1967-ci ildə yaranıb, yarandığı vaxt beş ixtisas üzrə 7 müəllimlə fəaliyyətə başlamışdır. İlk illərdə məktəbin şagird kontingenti 30 şagirddən ibarət olmuşdur.

Məktəb Böyük Bağmanlar qəsəbəsinin Mədəniyyət evinin binasında fəaliyyət göstərirdi. 1968-ci ildən müəllim kollektivinin sayı 25, şagirdlərin sayı isə 60-a çatdığına görə məktəb Mehrablı 50 ünvanına köçürülmüşdür. Həmin binada məktəbin binasına natamam inventarla təmin olunmuş 10 sinif otağı verilmişdir. Növbəti tədris illərində sinif otaqlarının sayı artırılaraq 32-yə çatdırılmış, məktəb tam inventarla təmin edilmişdir.

2004-cü ildə Mədəniyyət və Turizm Nazirliyinin tapşırığını nəzərə alaraq şəhər icra hakimiyyəti məktəbi Əlövsət Məmmədov 16 ünvanında yeni bina ilə təmin etmişdir. Həmin bina Heydər Əliyev fondunun və şəhər Mədəniyyət və Turizm İdarəsinin köməyi ilə əsaslı şəkildə və müasir standartlara uyğun təmir olunaraq, müəllim və şagird kollektivinin istifadəsinə verilmişdir. Hal-hazırda məktəbin 45 sinfində 120 müəllim 604 şagirdə musiqi sənətinin sirlərini öyrədir.

Məktəbin 40 illik yubileyi ilə əlaqədar məktəbə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən musiqi alətləri və metodiki vəsaitlər verilmişdir. Bununla yanaşı Mədəniyyət və Turizm İdarəsi də mütəmadi olaraq müvafiq avadanlıqla təmin edir.

Məktəb fəaliyyəti dövründə müxtəlif müsabiqələrdə və ictimai tədbirlərdə iştirak edərək bir çox fəxri fərmanlarla mükafatlandırılmışdır. O cümlədən 1999-cu ildə ümumrespublika müsabiqəsində III yerlə uğura imza atdığına görə Nazirlər və şəhər icra aparatı tərəfindən mükafatlandırılmışdır.

2002-ci ildə nazirliyin xətti ilə Astarada keçirilən, Uşaq Muğam İfaçılarının III Respublika müsabiqəsində müvəffəqiyyətli çıxışına görə məktəbin IV sinif şagirdi Məmmədov İlkin Şöhrəddin oğlu nazirliyin xüsusi diplomu ilə təltif edilmişdir.

2004-cü ildə UNİSEF-in xətti ilə keçirilən IV Uşaq Folklor Müsabiqəsində məktəbin III sinif şagirdi Məmmədov Elşad Əlövsət oğlu III yeri tutduğuna görə xüsusi diplomla təltif edilmişdir.

2004-cü ilin may ayında Astara

şəhərində keçirilən II uşaq muğam ifaçılarının Respublika müsabiqəsində məktəbin 4 nəfər şagirdi iştirak etmiş, onlardan 1 nəfəri-III sinif şagirdi Məmmədov Elşad Əlövsət oğlu pul mükafatı və müsabiqənin diplomuna layiq görülmüşdür. Respublika sarayında keçirilən yekun konsertində çıxış etmişdir.

2005-ci ilin sentyabr ayında keçirilən Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin dəstəyi ilə "Kainat" Gənclik mərkəzinin X uşaq muğam müsabiqəsinin finalında çıxışına görə məktəbin III sinif şagirdi Verdiyev Azər Əmiraslan oğlu müsabiqənin baş mükafatına layiq görülmüş və kompüter dəsti ilə mükafatlandırılmışdır.

2007-ci ilin aprel ayında Respublika üzrə keçirilən simli və nəfəsli alətlər üzrə müsabiqədə iştirakına görə məktəbin III sinif şagirdi Əsədov İsmət Məmmədhüseyn oğlu Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir.

2008-ci ilin mart-aprel aylarında Musiqi Akademiyasında keçirilən Qara Qarayevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Gənc musiqiçilər təhlil və ifa edir" elmi- ifaçılıq müsabiqəsində iştiraklarına görə 2 şagirdimiz-VI sinif şagirdi İdrisli Rüstəm Fəxrəddin oğlu, Fortepiano şöbəsi üzrə III sinif şagirdi Kərimova İradə Mehman qızı Skripka şöbəsi üzrə müsabiqənin diplomantı olmuşlar.

2008-ci ilin mart-aprel ayında Uşaq Musiqi və İncəsənət məktəbləri xor kollektivlərinin Respublika baxışı və Xalq Çalğı alətləri üzrə müsabiqəsi keçirilmişdir. Həmin müsabiqədə bizim məktəbin şagirdləri də uğurla çıxış etmişlər.

17.05.2008-ci il tarixdə Astara şəhərində keçirilən Uşaq Muğam İfaçılarının IV Respublika müsabiqəsində fəal iştirak etdiyinə görə Qasımov Sərxan Ramiz oğlu III yeri tutaraq müsabiqənin qalibi olmuş, Mədəniyyət və Turizm Nazirliyinin Diplomuna və 250 manat pul mükafatına layiq görülmüşdür.

Ulu öndərimiz Heydər Əliyevin 85 illik yubileyinə həsr edilmiş I Respublika müsabiqəsində 2 şagirdimiz - Əkbərzadə Aydın Murad oğlu və Əlizadə İslam Faiq oğlu yüksək səviyyədə çıxışına görə Bülbül adına orta ixtisas musiqi məktəbinin diplomantı adına layiq görülmüşdülər.

2009-cu ilin oktyabr ayında Mədəniyyət və Turizm Nazirliyinin "İstedadlı uşaqlar" devizi altında keçirdiyi Respublika müsabiqəsində məktəbin şagirdi Əlizadə İslam Faiq oğlu müsabiqənin diplomu ilə təltif edilmişdir.

2010-cu ilin aprel-may aylarında keçirilən Uşaq Muğam ifaçılarının V Respublika müsabiqəsində məktəbimizin muğam sinfinin üç şagirdi- Əmrahov Elmir Elman oğlu - II sinif, Nəsirov Elxan Bəhlul oğlu - III sinif və Əmiraslanov Asəf Ədalət oğlu - III sinif müsabiqədə fəal iştirak etdiklərinə görə şəhər mədəniyyət və turizm şöbəsinin diplomuna layiq görülmüş, hesabat konsertində uğurla çıxış etmişlər.

2010-cu ilin noyabr ayında Ağstafa şəhərində keçirilən Aşıq Şəmşir adına Gənc aşıqların V Respublika müsabiqəsində fəal iştirakına görə məktəbimiz Ağstafa Rayon Mədəniyyət və Turizm şöbəsi tərəfindən fəxri fərmanla təltif edilmişdir.

2010-cu ilin noyabr ayında Kürdəmir şəhərində keçirilən "İstedadlı uşaqlar" respublika müsabiqəsində fəal iştirakına görə məktəbin muğam II sinif şagirdi Cəfərli Beyrək Feyruz oğlu müsabiqənin diplomuna layiq görülmüşdür.

2010-cu ilin noyabr-dekabr aylarında Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən II Respublika müsabiqəsində uğurlu çıxışına görə Hacıyeva Günel Elşad qızı (III sinif kamança), Namazov Azər Arzu oğlu (III sinif tar) tərifnamə ilə təltif edilmişlər.

Məktəbimizin məzunlarından bir çoxu, o cümlədən müxtəlif formalı ayrı-ayrı müsabiqələrin qalibləri olan Qurbanov Şahin Firidun oğlu, Qafarov Arzu Nüsrət oğlu, Kərimov Vüqar Şəmşir oğlu, İsmayılova Kamalə İlham qızı, Verdiyev Elbrus Namik oğlu, Quliyev Orxan Nail oğlu, Tağıyev Mübariz Afiq oğlu, İdrisli Rüstəm Fəxrəddin oğlu, Məmmədova Tahirə Abbas qızı, Verdiyev Azər Əlövsət oğlu, Qafarova Aynur Rəhim qızı, Məmmədov İlkin Şöhrəddin oğlu və digərləri Respublika televiziyalarının efirlərində müntəzəm çıxış edərək xalqın zövqünü oxşayırlar.

I Respublika muğam müsabiqəsinin qaliblərindən biri-Prezident təqaüdçüsü Niftalıyev Babək Muğan oğlu məhz bu məktəbin yetirməsidir.

Məktəbin müəllim heyətinin 20 faizi öz yetirməsidir.

Məktəbin kollektivi Mədəniyyət və Turizm İdarəsi tərəfindən tarixi bayram və əlamətdar günlərdə keçirilən ümumşəhər tədbirlərində fəal iştirak edir.

**Uğurların qazanılmasında qabaqcıl müəllimlərin- xalq artisti Şahnaz Haşımovanın, əməkdar artistlərdən Zərinə Allahverdiyevanın, Kəmalə Tağızadənin, müəllimlərdən Sərdar Bağırovun, Fəxrəddin Bağırovun, Sevil Əsgərovanın, Şövkət Əliyevin, Tamella Məmmədovanın, Tamella İsayevanın, Mehriban Musayevanın, Məlahət Əliyevanın, Svetlana Hüseynovanın, Əliağa Səlimovun, Rəsul Quliyevin, Arif Məmmədovun və başqalarının xüsusi rolu vardır.**

**E. HƏSƏNQIZI**